# Gürcü dilində “Heydər Əliyev – 100” kitabı Tbilisidə hədiyyə edilib

**Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları Gürcüstana səfər çərçivəsində Tbilisidə Türkiyənin Yunus Əmrə İnstitutunun qonağı olublar. İnstitut 2012-ci ildən bəri Tbilisidə təhsil və mədəniyyətlə bağlı geniş fəaliyyət göstərir. Bu qurum hər il konfranslar, simpoziumlar, xalq oyunları, seminarlar, müsabiqələr, sənət kursları təşkil edir, filmlər, konsertlər nümayiş etdirir, sərgilər, xüsusi günlərlə bağlı tədbirlər, türk mətbəxinin təbliğini həyata keçirir.**



Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları qurum adından Yunus Əmrə İnstitutunun kitabxanasına gürcü dilində işıq üzü görmüş “Heydər Əliyev – 100” kitabını hədiyyə ediblər. Kitab “Heydər Əliyev ili” çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Tbilisidəki “Alyans” Gənclər Birliyinin layihəsi əsasında hazırlanıb.

Görüşdə institutun direktoru Can Güray Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli siyasət və dövlət xadimi, ulu öndər Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinə böyük dəyər verdiyini, onunla bütün türk dünyasının qürur duyduğunu bildirib. Onun sözlərinə görə, gürcü xalqı da türk xalqları kimi, Azərbaycanın böyük oğlu, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin xatirəsini əziz tutur, onu Gürcüstanın böyük dostu, qayğıkeşi hesab edirlər. Bu ölkənin istər yuxarı hakimiyyət orqanlarında təmsil olunanlar, istərsə də sadə xalqın nümayəndələri ulu öndərin bir sıra enerji layihələrinə Gürcüstanı da cəlb etməsini daim minnətdarlıq hissi ilə xatırlayırlar.

Direktor Heydər Əliyevin diaspor quruculuğu, türk dövlətlərinin bir araya gəlməsi istiqamətində göstərdiyi misilsiz xidmətlərə diqqət çəkib. Görüşdə eyni zamanda, Azərbaycan dövlətinin diaspor siyasəti, komitənin fəaliyyət istiqamətləri, Türkiyənin Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları ilə sıx əməkdaşlıq, komitə sədri Fuad Muradovun Budapeştdəki Yunus Əmrə İnstitutunda çalışan türk və macar müəllimləri ilə görüşü, “bir millət, iki dövlət” prinsipi əsasında birgə fəaliyyət barədə məlumat verilib.

Cənab Güray əlavə edib ki, rəhbərlik etdiyi Yunus Əmrə İnstitutu Gürcüstanda, xüsusən paytaxt Tbilisidə çoxşaxəli fəaliyyət göstərməklə kifayətlənmir, Azərbaycanla da daim sıx əlaqə saxlayır, təşkil etdiyi tədbirlərə Azərbaycan nümayəndələri də mütəmadi olaraq dəvət olunurlar. Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsi isə həmişə institutun yanındadır. Komitə institutun kitabxanasına müəyyən qədər kitab hədiyyə edib. Ancaq bunlar azdır. İnstitut Azərbaycanın ayrı-ayrı qurum və təşkilatlarının bu məsələdə daha çox yardım göstərəcəyinə ümid edir.

Sonda institutla Tbilisidəki “Alyans” Gənclər Birliyi arasında sıx əməkdaşlıq yaradılması barədə razılıq əldə olunub.

***P.ƏMİRCANOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 5 may.- S.11.